Azərbaycan Milli
Kitabxanası

# Kredo

MÜBARİZƏSİDİR! TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA

Müstəqil ictimaisiyasi, publisistik qəzet №08 (1264) 04 mart 2025-ci il Qiymətİ 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır

# BƏDİRXAN ƏHMƏDLİ - 70

## ELMİN BAŞ KEÇİDİNDƏ DÜŞÜNCƏ AXARININ GÜCÜ



*Əli Rza XƏLƏFLİ*

Təbiətdə və cəmiyyətdə elə hadisələr var ki, məni heyrətdə qoyur, çox vaxt mahiyyətini və səbəblərini bilsəm də, sanki qavraya bilmirmiş kimi təəccübümdə qalıram.

Məsələn, sellər, xüsusilə dağ selləri... Kükrəyib gəlir... Dağıdıcı, qarşısıalınmaz bir gücdə görünən sellərin gətidiyi axının tərkibində 30 faizdən də az su olur. Bəs bu qədər kütləni dağıdıcı gücə çevirən hansı enerjidir? Yaxud, cəmiyyət daxilində... bir adam öz nitqi ilə milyonlarla insanı necə ifadə edir, heç bir dövlət, siyasi, hərbi güc tətbiq etmədən, ən inadkar adamlar belə hipnoz olmuş kimi ümumi axara qoşulur.

Əlbəttə, bütün bunlar izah oluna bilən məsələlərdir. Di gəl ki, qeyri-adiliyini danmaq olmur. Beləcə fikir adamlarına diqqət yönəltməklə bir alimin məktəb yaratmaq gücü müasirlərinin və özündən sonrakı nəsillərin yaddaşında nəinki qalmaq, hətta onları istiqamətləndirmək imkanları da heyrət qaynağı ola bilir. Düşünürəm və həm də inamlıyam ki, Bədirxan Əhmədli də belə ölçüyəgəlməz fikir gücünə sahib alimlərimizdəndir. Əvvəlcə düşünürdüm ki, onun hər biri ədəbiyyatşünaslıq elmimizdə hadisə olan monoqrafiyalarının, elmi tədqiqat əsərlərinin adını sadalamayım. Ancaq görürəm, heç olmasa, bir-iki faktı qeyd etməsəm yazının portret cizgiləri tələblərini pozmuş olaram. "Sabir Fərmanın satirası" (1986) namizədlik, "Azərbaycan satirasının inkişaf problemləri" (2005) doktorluq dissertasiyaları artıq elmə basmaqəlib yolla yox, fərqli düşüncə istiqamətində gələn alim haqqında müfəssəl məlumat, aydın göstəriş idi.

Beş il kənd məktəbində (Sabirabad) müəllim işləmək, yeddi il arxiv idarəsində ədəbiyyat sahəsi üzrə müxtəlif vəzifələrdə çalışmaq, iki il "Vətən səsi" qəzetində, yeddi il Müdafiə Nazirliyinin "Azərbaycan ordusu" qəzetində jurnalistlik fəaliyyəti, I Qarabağ müharibəsində iştirakı, sonralar Türkiyənin Kars-Kafkas Universitetində çalışması, nəhayət, doğma Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda müxtəlif mühim vəzifələrdə çalışması onu həyat akademiyasının həqiqi akademikinə çevirmişdir. O, nəinki kamil alim kimi formalaşmış, həm də şəxsiyyət mükəmməlliyi ilə bütün tərəflərdən diqqəti cəlb edən obraza - əsl ziyalı



obrazına çevrilmişdir.

Üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi", "Bir istiqlal yolçusu", "Əmin Abid. Seçilmiş əsərləri" kimi əsərləri hansı mənəvi potensial hesabına ərsəyə gəlib - bunu təsəvvür etmək o qədər də asan deyil. Nüfuzlu ödüllərin və mükafatların sahibidir. Daha bir əsərinin adını çəkməməyi insafsızlıq bilərdim: "XX yüz il Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər". Bu kitab qeyri-adi zehni və tükənməz fiziki enerjinin sayəsində ərsəyə gəlib. Hər fəslin (6 fəsil) təkcə adı, hər adın altında cəmləşən yarımbaşlıqların özü mükəmməl fikir bələdçisidir. Yazıya ağırlıq gətirməmək üçün bunları sadalamıram. Bircə onu deyirəm ki, bu kitabın hər fəsli ayrıca tədqiqat istəyir. Bu kitab Bədirxan Əhmədlinin Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Vəli Xuluflu, Həmid Araslı, Məmmədcəfər, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Yaşar Qarayev... sırasında yerini təmin edir.

Elmin Baş keçidində düşüncə axarının gücü haqqında sözümü bir az da davam etdirsəm, ilk gəncliyimdən tanıdığım Bədirxana qayıda bilməyəcəm. Ona görə də Əkbər Əlioğlu, Vüqar Əhməd... kimi alimlərin elmi-nəzəri yazılarını xatırlatmağa bir qənaətimlə bu istiqamətdə qeydlərimə yekun vurmaq istərdim: "XX yüz il Azərbaycan ədəbiyyatı" monoqrafiyası Bədirxanın və ədəbiyyatşünaslıq elmimizin elmi etiketi olduğunu deyəsən, hələ tədqiqatçılarımız qədərincə dərk etməyiblər.

...1973-cü ilin noyabr tətilində Sadaxlıdan Hümmət Əhmədovun və Başkeçiddən Əlixan Əhmədovun dəvəti ilə onlara qonaq getdim. Əvvəlcə, bir neçə gün Sadaxlıda Hümmətgilin qonağı olduq. İlk dəfə xəngəli orada yedim. Bütün təmtəraqı ilə... Hürü ananın doğmalığı indi də yadımdan çıxmır.

Üç gündən sonra yolumuz Başkeçidə - Əlixangilin kəndinə - Azərbaycan Gəyliyən (Qozlu) obasına idi. Əlbəttə, qonaqpərvərliyin hər cür rəngi könlümü şad elədi. Əlixanın atası Əhməd kişinin, digər qohumlarının sevgili münasibətləri mənim unudulumaz xatirələrimdir.

Kəndə çatmağımızın anında qohum-əqraba tökülüşüb görüşə gəldi, uzun qarabəniz, saçı darağa yatmayan bir yeniyetmə də onalrın arasında idi. Orta məktəbin sonuncu sinfində oxuyan həmin yeniyetməni Əlixan bizimlə tanış etdi:

-Əmi oğlu Bədirxandır, gələn il bizim instituta gələcək.

Tələbə olmağın şöhrət çələngi ruhumuzu bəzəyirdi. Bədirxan da bizdən gözünü çəkmir, nə deyiriksə, hamısına diqqət edir, bizi hər baxımdan maraqla izləyirdi. Meşələri, dağları gəzdik. O dağlardan aşağılara - Darvaza baxdım. Gördüyüm mənzərələr indi də gözlərimin önündədir. Bədirxan elə birinci il qəbul olundu. Yataqxanada qonşu otaqlarda yaşayırdıq. Yəqin ki, doğma kəndin qohumları haqda xəbər bilmək üçün bizim otağa, əmisi Əlixanın yanına tez-tez gələrdi. Hərdən mən də onun yanına gedərdim. Fazil adlı bir gənclə qalırdı. İki istedadlı gəncin bir otağa düşməsi əslində bəxtin uğuru idi. Bəli, indi onlar elmin müxətlif sahələrində özlərini təsdiq etmiş alimlərdir. Əslində onların alimliyi həmin Dənəgüldəki yataqxanadan başlamışdı.

Əvvəllər düşünürdüm ki. Bədirxan dağların bir parçası kimi təbiətdən qopub gəlib. Qürurunu o dağlardan, ruhunun duruluğunu Başkeçid bulaqlarından alıb. Üstünə diri ilan atsan varlığına, təbiətinə yad olanı qəbul etməz. Haqsıza haqlı deməz, haqlını haqsız görmək ona bilmərrə yaddır.

Bayrağımızda rənglərin ideya qaynaqları haqda polemikasındakı zəkavi mübahisə aparmaq qabiliyyəti, fikirlərini mükəmməl əsaslandıranlarla şərh etməsi, hədsiz dəlil, fakt, yüksək nəzəri hazırlıq ehtiyatı onun məğlubiyyətsizliyini təmin edir. Əlbəttə, bildiyinə əmin olmaq inamlı mübarizənin rəhmidir.

***(Davamı 16-cı səhifədə)***

# BƏDİRXAN ƏHMƏDLİ - 70

# ELMİN BAŞ KEÇİDİNDƏ DÜŞÜNCƏ AXARININ GÜCÜ

*(Əvvəli 1-ci səhifədə)*

Birinci Qarabağ müharibəsində Cəbrayıl qaynar, odlu döyüş bölgəsi idi. Onda mən rayon qəzeti redaksiyasında işləyirdim. Məhşur çinarın dibində, Cəbrayıl kəhrizinin üstündə onu gördüm. Əlbəttə, təəccüb qarışıq sevincimin həddi, hüdudu yox idi. Dostları ilə məni tanış etdi: Lətif Şükürov, Rəşid Faxralı, Söhbət Səfərli. Qəti tələbimlə bizə getdik. Çaydan, yüngül istirahətdən sonra onları gəzməyə apardım. Dağları gəzdik, Başkeçidlə müqayisələr apardıq.

Döyüşə gedən qaynım oğlunun məclisində iştirak etdik. Gücəni bizim Cəbrayıldakı evimizə qayıtdıq. Cəbrayıl səfərindən sonra onları Zəngilana yola saldım. Ayrılarkən Bədirxanla aramızda belə bir dialoq oldu:

-Sən niyə Bakıya gəlmədin? Sənin elmdə yerin vardı.

-İş belə gətirdi. Ancaq gəlmək, elmlə məşğul olmaq fikri bir gün də olsun başımdan çıxmır.

-İlk mərhələləri keçməyə tam hazırsan - Bədirxan dedi, sonra da aspiranturanı, mövzu üzərində işləməyi nəzərdə tutduğunu bildirdi.

-Gözüm yeyir, gəlmək istəyirəm, - cavab verdim.

-Yox, indiki vaxtda getsən deyərlər dar gündə torpağı qoydu qaçdı. Müharibə bitsin, mütləq gəl.

-Sizin yanınıza gələrəm, arxayın ol...

-Gözləyərik. Di sağ ol.

-Yaxşı yol, - əl elədim.

Bir də görüşümüz işğaldan sonra, həyat uğrunda mübarizə zamanı oldu.

"Kredo" qəzetinin nəşrində məsləhətlərini əsirgəmədi. Həmin qəzetin ilk səhifəsində iri portreti təqdim etmək və cizgilər yazmaq da onun ideyası idi.

Bədirxan Əhmədli mənim üçün "Vətənin qıraqda qalan yerləri"nin (Səməd Qaraçöp) canlı obrazıdır. Düşünürəm ki, Bədirxan kimi alimlərin, zəka sahiblərinin sayəsində Azərbaycan Turanın mədəni mərkəzinə çevrilir.

Nadir şah Əfşarın səhvini, bəlkə də, cinayətini nə vaxtsa düzəltmək mümkün olacaqmı?! Hər halda Bədirxan kimi alimlər, heç olmasa, vətənin birliyini, mənəvi cəhətdən təmin etmək yolunda çalışırlarsa, bunu görmək gərəkdir.

Bir vaxt Turan əfsanə təriqində dilə gəlirdi. Bu, günümüzün reallığıdır.

Ötən il mənim "Xəzanda yaz gülləri" adlı poema-kitabım çap olundu. Həmin kitabda "Başkeçiddən üzü bəri" adlı poemamdan bir parçanı - görkəmli elm xadimi Bədirxan Əhmədliyə həsr olunmuş hissəni də burada xatırlayıram:

Azərbaycan Gəyliyən, Azərbaycan Qozlusu,
Adının adı yanar, əlin əldən üzülsə.
Gəlməsə qəm evinə, könül almaz sözlüsü,
Dağlar dağlana qalar elin dildən üzülsə.

Qonaq olduq bir zaman dostum Əlixangilə,
Əzizimiz Hümmətlə qalxdıq uca dağlara.
Hələ gənc Bədirxanı orda mən gülə-gülə,
Gördüm necə can atır daha gözəl çağlara.

İndi Turan boyunca şöhrətə sahib olan,
Bədirxan Borçalının fəxridir desəm, azdır.
Elmində, zəkasında böyüyüb yaşa dolan,
Bədirxandan yazmağa təbim yenə ayazdır.

Borçalı dağlarının güllü yazı, payızı,
Düşüncəmdə dolanır, sözümə ətir saçır.
Xəyalımda yaşayan Başkeçidin havası,
Yaddaşımda yaşayıb, kitab-kitab gül açır.

**Son söz əvəzi:** Əzizim Bədirxan, bu qeydləri Cəbrayıldan yazıram və ilk yazı olaraq. Cəmiyyətdə adamların fikir axarını, şübhəsiz, düşüncə adamları, özünü ifadə imkanları ilə cazibə yaradan insanlar müəyyən edir.

Hər bir axar istər sel olsun, istərsə də, inqilab dalğaları - müəyyən mərhələlərdən keçir, istiqamətlər alır hər bir axın; şübhəsiz, bu zaman problemlər qaçılmazdır.

Bütün bunların sirlərini bilən adamlar azdır, ancaq var. Həmin adamlardan biri də tam inamımla deyirəm, Bədirxan Əhmədlidir.

*03.03.2025*